# "Kaş o biri dünya olaydı, Nüsrətlə orda qarşılaşaydım"

## RƏHİLƏ KƏSƏMƏNLİ: "NÜSRƏT KƏSƏMƏNLİYƏ QARŞI ÇOX HAQSIZLIQLAR OLDU"

**XX əsr Azərbaycan ədəbiyyatının məhəbbət şairi kimi tanınan Nüsrət Kəsəmənlinin həyat yoldaşı Rəhilə Kəsəmənli Modern/az saytının suallarını cavablandırıb. Onunla söhbəti təqdim edirik.**

**- Rəhilə xanım, ilk tanışlığınızda Nüsrət müəllim sizə şeir deyibmi və ya yazdığı hansısa şeiri təqdim edibmi?**

- Onun mənə yazdığı bir neçə şeir olub. İlk dəfə tanış olduğumuzda mənə ilk şeiri yazmışdı. Ailə qurmazdan əvvəl ikinci şeiri də yazmışdı mənə. Bir dəfə mən pis xəstələndim. Fakültədə idim, özümü yaxşı hiss etmirdim. Mənə görə, təcili tibbi yardım çağırmışdılar. Nüsrət həmin vaxt hər gün fakültəyə gəlir, mənimlə maraqlanıb gedirdi. Həmin gün də o fakültəyə gəlib, məni təcili yardımla evə aparıldığımı bilib. İkinci şeri də məhz onda yazmışdı. Mənə görə çox narahat olmuşdu. Nüsrətin yazdığı bir şeiri də var: "Sən gözümün ağısan, ilk məhəbbət qarası...".

Bu misraları adətən onun ilk məhəbbəti Sevdaya yazıldığını hesab edirlər. Mən düşünürəm ki, bu şeirdə məni nəzərdə tutaraq, həmin sözləri yazıb. "Sən gözümün ağısan, ilk məhəbbətimin isə qarası".

**- Niyə elə düşünürsünüz ki, sizə yazıb?**

- Çünki bu şeir yazılanda biz ailə qurmuşduq. Amma çox insan, elə həyat yoldaşı bu cür misralar yazan xanım belə düşünə bilər ki, mən gözünün ağıyam, o isə qarasını dəyərləndirir. Mən çox səbrli olmuşam. Sona qədər də bunu sübut etdim. Heç zaman peşmançılığını dilə gətirməyən Nüsrət axırda peşmanlığını dilə gətirdi. Bu, peşmanlıq "Etiraf" şeirində dilə gətirildi. Bəzən ona irad tuturdum. Deyirdi ki, "sən istəyirsən, mən peşman olduğumu etiraf edim? Mən heç vaxt peşmançılığımı dilə gətirməyəcəyəm. Çünki peşman olmaq mənim üçün ikinci məğlubiyyətdir".

Açığını deməliyik, hər xanım səbirli olub, həyat yolunu birlikdə getdiyi, "mən heç vaxt peşman olmuram" deyən adama "Etiraf" yazdıra bilmir ("Etiraf" şeirindən misralar səsləndirir)

*Bilmirəm, mələksən, Allahsan, nəsən*
*Mənə bağışladın neçə günahı.*
*Belə mehribanlıq eylədikcə sən,*
*Özüm öz gözümdən düşürəm axı.*

Özü öz gözündən düşüb, günahlarını etiraf etmək peşmançılıq deyilmi? Elə bununla da sübut etdi ki, gözünün ağı da, qarası da ailəsidir

**- Sizinlə evlənənə qədər Nüsrət Kəsəmənlinin adı, nüfuzu var idi. Onun sizinlə ailə qurmaq istədiyini biləndə nə hislər keçirdiniz?**

- Çox narahat oldum. Onu üzdən tanımırdım, amma şeirlərini oxuyurdum, bəyənirdim. Mənə Bəxtiyar Vahabzadə dərs deyib. Mən elə tələbəlik illərindən Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, sonralar Nüsrətin poeziyasını sevirdim. Mən BDU-da birinci kursdan həm oxudum, həm işlədim.

Elə mən birinci kursda olanda Nüsrətlə tanış olmuşuq. Bayaq dedim ki, işləyirdim, birinci kursda olanda məni laborant kimi universitetdə işə götürmüşdülər. Günlərin bir günü, bir cavan oğlan əlində vərəq gəldi ki, bəs, zəhmət olmasa bu yazını köçürün, sabah gəlib aparacağam. Bu kağız parçasında çox maraqlı şeir yazılmışdı. Şeir o qədər gözəl idi ki, iki nüsxə köçürdüm- birini sahibinə verməyə, birini də özüm üçün. Sabahısı yazını götürməyə başqa bir hündürboylu, yaraşıqlı oğlan gəlmişdi. O dünən mənə vərəq verildiyini bildirdi. Dedi ki, həmin vərəqi aparmağa gəlib. "Bu mənim şeirimdir" – dedi . Bu oğlan mənə o qədər tanış gəlirdi ki... Amma xatırlaya bilmirdim ki, onu hardan tanıyıram. Gedəndə dedi ki, qoyun əlyazma sizdə qalsın. Sən demə bu oğlan qəzetlərdən, jurnallardan tanıdığım Nüsrət Kəsəmənli imiş. Bu hadisədən sonra, qrup yoldaşlarım, tez-tez mənə Nüsrətdən danışır, elə hey onu tərifləyirdilər. Mən hələ də söhbətin nədən getdiyini anlamamışdım. Sən demə universitetdə məndən başqa hamı Nüsrətin mənə olan hisslərindən xəbərdar imiş. Sonra bir gün məni telefona çağırdılar, xəttin o başından gələn səs Nüsrətin səsi idi. Danışdı nə danışdı. Sən demə mənim üzümə baxmağa utanırdı, ona görə də hisslərini telefonla deməyi qərara alıbmış. Sizin sualın cavabına gəlincə. Nüsrətin mənə aşiq olduğunu biləndə ətrafımdakı qızlar gülürdülər, zarafatyana mənə söz atırdılar. Onlar düşünürdü ki, Nüsrət hansı qıza ciddi yanaşıbsa, həmin qız rahat olmalıdır. Mənim narahatlığımın səbəbi isə gənclik illərində Nüsrətdən çox danışılmağı olub. Mənə olan münasibətini bilən də, bilməyən də danışırdı. Nüsrətin yazdığı şeirləri hərə bir səmtə yozurdu. Ona görə mən də Nüsrətə razılıq verməkdə tərəddüd edirdim. Həm savadlı, gələcəyi olan insan kimi qəbul edirdim, həm də düşünürdüm ki, indidən belədirsə, həyat yolunda onunla necə addımlaya bilərəm?! Bu suallar məni çox düşündürürdü.

**- Heç olubmu ki, çox ciddi problem yaşayasınız?**

- İki dəfə elə bir vəziyyətin üstü açılmışdı ki, mən düşünürəm hər qadın bunları biləndən sonra həyatını həmin insanla davam etdirməzdi.

**- Üstü açılan nə idi?**

- Onu deməyəcəyəm. Nüsrət ona görə də "Mənə bağışladın neçə günahı..." yazırdı. Bizim ailə qurmağımıza tək özümüz deyil, elə insanlar kömək etmişdilər ki, o bir növ çəpər idi. Evliliyimizə xeyir-dua verən Şirməmməd Hüseynov idi. Şirməmməd Hüseynov mənə görə Nüsrətə də xəbərdarlıq etmişdi ki, Rəhilə hər görünən qızdan deyil, ona münasibətdə ciddi olsun. Sonradan onlar bizə elçi gələndə anam qəti şəkildə etiraz edirdi. Hətta demişdi ki, ümumiyyətlə həmin oğlan və ailəsi biz tərəflərdə görünməsin. Amma sonda Nəsir İmanquliyev və həyat yoldaşı Gövhər xanım anamı razı saldı. Nəsir müəllim elə insan idi ki, başına topladığı gənclərə atalıq qayğısı göstərirdi. İstər Şirməmməd müəllim, istərsə də Nəsir müəllim təmiz niyyətlə ailə qurmaq istəyən gənclərə kömək edirdilər. Onlar tanımadıqları, bələd olmadıqları insan üçün nə qapı döyərdilər, nə də qız tərəfi olub, qəbul edərdilər. Mən xeyli fikirləşdim, götür-qoy etdim. Hər kəs özünü yaxşı tanıyır. Əgər öz içimdə qüsurlarımı bilirəmsə, kənardan nə qədər təriflənsəm də bunu səmimi qəbul edə bilmirəm. Düşündüm ki, Nüsrət ətrafında o qədər gözəl qızlar görüb, mən isə adi bir qızam. Niyə Nüsrət kimi gözəlliyi sevən biri qat-qat gözəllərlə deyil, mənimlə ailə qurmaq istədi? Elə bir imkanım yox idi ki, deyim, kasıb oğlandır, bəlkə maddi durumu yaxşı olan ailə axtarır. Düşündükcə, bu qərara gəldim ki, Nüsrətin gözündə tərbiyəli, ağıllı olduğuma görə məni seçmişdi. Nüsrətin ətrafında olan qızların içərisində vəzifəli ailədən olanlar da var idi. Amma ona elə qadın lazım idi ki, əlindən tutub, ömür yolunu rahat keçə bilsin.

**- Nüsrət Kəsəmənlinin ilk sevgisi Sevdanı sevdiyini nə zaman bildiniz?**

- Evlənməzdən öncə.

**- Nüsrət müəllim özü etiraf etmişdi?**

- Onu mən eşitdim. Əmim qızı Filologiya fakültəsində oxuyurdu. Fakültədə Nüsrətin mənə münasibətinin olduğu barədə söz-söhbət yayılanda, əmim qızı mənim yanıma gəldi. Zarafata salıb dedi ki, belə bir şey eşidib. O, "Sən bilirsən ki, onun bir Sevdası var?" dedi. Mənə hələ də çatmırdı. Nüsrətə sonradan dedim, "əgər belə ciddi münasibətin varsa, mən sənin həyatında ikinci ola bilmərəm. Düşün, özün qərar ver, mən də sonra peşman olmayım. Məcbur deyil ki, sənin həyatında olum. Əgər öz fikrin qətidirsə, sonuna qədər bunun arxasında dur". O mənə fikrinin qəti olduğunu bildirdi. Nüsrət Sevdanı çox istəyirdi. Bir şeyi etiraf edim: əvvəllər Rəhilə və Nüsrətin məhəbbəti Sevdayla Nüsrətin qarşılıqlı sevgisindən güclü olmayıb. Bizim ailəmizin möhkəm,




uzunömürlü olmağımızın səbəbi sonuna qədər bir-birimizi kəşf etməyimizdir. Bir-birimizin müsbət cəhətlərini aşkara çıxara-çıxara yaşadıq. Məhəbbətimizi qram-qram yığdıq. Nə Nüsrət, nə də mən bu qram-qram yığılmış məhəbbəti itirdik.

**- Sevda toyunuza da gəlibmiş. Ona rəhminiz gəlirdi, yoxsa qısqanırdınız?**

- Mən qəti surətdə belə münasibətin əleyhinəyəm. Qısqanclıqdan günü bu gün də söhbət gedə bilməz. Nüsrət əsgərliyə getdi. Onda bizim münasibətimiz davam edirdi. Amma o qayıdanda Sevda nişanını qaytarmışdı. Görünür, istəyi olmayıb. Valideynləri evlənmək yaşı keçdiyindən, Nüsrətə də əmin ola bilmədiklərindən onu evləndirməyə çalışıblar. Qızın nişanı qayıtmışdı. Nüsrət hədsiz qısqanc idi. Onun üçün bir qızın kiminləsə görünməsi, söz-söhbət çıxması qəbuledilməz idi. Ona görə, sonradan Nüsrət onu qəbul etməyib. Amma Sevda çox gözəl qız idi. İmkanlı ailənin övladı idi. Çox ciddi qız olub.

**- Nüsrət Kəsəmənlinin məşhur bir şeiri var: "Bir Sevda ağlayır içimdə mənim". Bunu sizinlə evlənəndən sonra yazıb?**

- Bəli.

**- Bəs buna necə razı olmuşdunuz?**

- Bu şeir yazılanda artıq bizim ailəmiz var idi. Sevda isə rəhmətə getmişdi. Kimsə desə ki, qısqanmırdım, tamam doğru olmaz. İnsan istəyirsə, bağlıdırsa, az da olsa qısqanclıq duyur. Amma mənim xasiyyəyim belədir ki, heç vaxt qısqanclığı üzdə bildirməmişəm. Gənc qızlara da tövsiyəm budur ki, qısqanclıqlarını biruzə verməsinlər. Çünki, bu, oğlanların əlində bir silahdır. Çünki kişilər istədikləri vaxt qısqandırmağa hazırdırlar. Ona görə bu məsələdə ehtiyatlı olmaq lazımdır.

**- Bəs o, sizi nəyə qısqanırdı?**

- Nüsrət ümumiyyətlə çox qısqanc idi. Vəziyyət elə idi ki, mən özüm özümə güclü nəzarət edirdim. Əvvəldən elə bir ailədə böyümüşəm ki, bu tərbiyəni görmüşəm. Atan dünyasını dəyişəndə mənim 19 yaşım var idi. O vaxta qədər atam evimizdəki qohum-əqrəbanın yanında belə mənim adımı çağırmazdı. Qardaşımı adı ilə səsləyərdi. Evimizə yad insanlar gələ bilməzdi. Elə bir ciddi ailədə böyümüşdüm. Mən başqa cür ola da bilməzdim.

**- Nüsrət müəllim həm sizi qısqanırdı, həm də başqasına şeir yazırdı?**

- Bizim ailədə kişinin yeri tamam başqa idi. Hər bir qadın həyat yoldaşına aslan kimi baxmalıdır. Hər bir ailədə ailə başçısına hörmət olmalıdır. Ailədə kişi qadının qürur yeridir.

**- Deyirlər ki, Nüsrət Kəsəmənli hər xoşuna gəldiyi qadına şeir yazırdı. Əslində həmin şeirlərdə nakam bir məhəbbətin də nəfəsi duyulur. Həqiqətən də, elə olubmu ki, Nüsrət müəllim hər gördüyü qadına şeir yazsın?**

- Mən görməmişəm. Sadəcə, Nüsrət elə mövzuya toxunub ki, hər kəsin ürəyindən xəbər verən məsələlər olub.

*(davamı var)*